# Asan olmayan müstəqillik yolu: xilaskar liderin qayıdışı

*Müstəqilliyə gedən yol heç bir xalq üçün asan olmayıb. 1991-ci ildə müstəqilliyini yenidən bərpa edən Azərbaycan ciddi daxili böhran, siyasi sabitsizlik, idarəetmədə peşəkar çatışmazlığı və separatçılıq meylləri ilə qarşılaşdı. O dövrdə rəhbərliyə gələn qüvvələr dövlət idarəçiliyində təcrübəsizlik nümayiş etdirərək xalqın etimadını doğrultmadılar. Ermənilərlə müharibənin qızğın vaxtlarında ölkə daxilində də ciddi parçalanma meylləri gücləndi. Hakimiyyət uğrunda mübarizə dövlət strukturlarını zəiflətdi, əhalidə ümidsizlik və çaşqınlıq yaratdı. 1993-cü ilin iyunun 4-də Gəncə şəhərində, Azərbaycan Ordusunun ovaxtkı korpus komandiri Surət Hüseynovun rəhbərlik etdiyi hərbi hissə ilə hökumət qüvvələri arasında silahlı qarşıdurma baş verdi. Surət Hüseynovun tabeliyində olan 709 saylı hərbi hissəni tərk-silah edilməsi ilə bağlı cəhdlər uğursuzluqla nəticələndi, yaranan qarşıdurmada 35 nəfər həyatını itirdi.*



AXC-Müsavat iqtidarının hakimiyyətdə olduğu illər ölkə üçün son dərəcə ağır və sarsıntılı mərhələ idi. Hakimiyyətə gəlmiş siyasi qüvvələrin dövlət idarəçiliyi təcrübəsi yox idi. Ən təhlükəlisi isə o idi ki, vəzifələrə təyinat "mitinqlərdə iştirak prinsipi" ilə həyata keçirilirdi. Dövlət strukturları arasında əlaqə kəsilmiş, hakimiyyətdə qruplaşmalar yaranmışdı, siyasi idarəetmədə maraqlar toqquşurdu. Hakimiyyətdə olan şəxslərin hər biri özünü "siyasi lider" kimi aparırdı. Silahlı qüvvələr üzərində nəzarət tamamilə itirilmişdi. İqtisadiyyat iflic vəziyyətə düşmüş, sosial sahədə isə tam bir boşluq yaranmışdı.

Bu hadisələr fonunda, 1993-cü ilin əvvəllərindən ölkə daxilində silahlı qarşıdurma təhlükəsi tədricən artmağa başlamışdı. Gərginliyin əsas mərkəzlərindən biri də Gəncə şəhəri idi. Əbülfəz Elçibəyin 709 saylı hərbi hissənin ləğv edilməsi ilə bağlı 1993-cü ilin fevralında verdiyi sərəncam Surət Hüseynov tərəfindən icra olunmadı. O, öz silahlı dəstəsi və qiyamçı tərəfdarları ilə mərkəzi hakimiyyətin qərarlarına qarşı çıxaraq, əmrə tabe olmadı. Hərbi hissənin Gəncədən Ağcabədiyə köçürülməsi ilə bağlı verilən sərəncam da rədd edildi. Qiyamın birbaşa start nöqtəsi isə Gəncədə 200 nəfərlik silahlı dəstənin şəhərin polis postlarını ləğv etməsi və icra hakimiyyətinin binasını ələ keçirməsi oldu. Bu, artıq lokal narazılıq deyil, dövlətin suveren strukturlarına qarşı birbaşa silahlı təzyiq idi. Surət Hüseynovun silahlı hissələrinin Bakıya doğru hərəkət etməsi Azərbaycanı faktiki olaraq vətəndaş müharibəsinin astanasına gətirdi. Yol boyu Gəncə ilə paytaxt arasındakı bir sıra rayonlarda silahlı qarşıdurmalar baş verdi. Milli Qvardiyanın həmin hissəni tərk-silah etmək üçün göndərilməsi isə istənilən nəticəni vermədi. Əksinə, ölkədəki hərbi-siyasi böhran daha da dərinləşdi. Gəncə ilə yanaşı, Lənkəran, Qusar və digər bölgələrdə də silahlı dəstələr mərkəzi hakimiyyətə qarşı çıxmağa, faktiki olaraq separatçı meyillərlə çıxış etməyə başladılar. 1993-cü ilin yay aylarında Azərbaycan artıq vahid idarəetmə strukturunu itirmiş, ölkənin suverenliyi real təhlükə altına düşmüşdü.

Surət Hüseynovun rəhbərlik etdiyi hərbi birliklərin Gəncədən Bakıya doğru irəliləməsi artıq hakimiyyətin iflasını sürətləndirirdi. Gəncəyə göndərilmiş ovaxtkı hökumətin yüksək rütbəli nümayəndələri silahlı dəstə tərəfindən girov götürüldü. Bu hadisə bir daha göstərdi ki, iqtidarın nə siyasi nüfuzu, nə də güc strukturlarına real nəzarəti var. Girov götürülmüş məmurların azad olunması üçün hökumətin apardığı danışıqlar nəticə vermədi.

4 iyun 1993-cü il tarixində Gəncə hərbi qarşıdurma meydanına çevrildi. Küçələrdə tankların hərəkəti, avtomatlarla silahlanmış şəxslərin nəzarətsiz dolaşması, şəhərin müxtəlif məntəqələrində baş vermiş silahlı toqquşmalar ölkədə idarəetmənin tam çöküşünü nümayiş etdirirdi. Gəncə əhalisi üçün bu günlər real təhlükə idi. Küçələrdə qan axıdılmış, onlarla insan həyatını itirmişdi. AXC-Müsavat iqtidarı hadisələr qarşısında tam aciz qalmışdı. Hökumət üzvləri arasında panika, qərarsızlıq və xaos hökm sürürdü. Surət Hüseynovun qarşısında demək olar ki, heç bir müqavimət göstərilmədi. Həmin vaxt iqtidar daxilindəki parçalanmalar və bir-birinə zidd maraqlar ölkəni daha da böhrana sürüklədi. Silahlı qiyam qarşısında siyasi gücsüzlük nümayiş etdirən iqtidar uçurumun bir addımlığında idi. Bu dövrdə xalqın nəzəri tək bir istiqamətə - Naxçıvana yönəldi. Ermənistanın blokadasında olan, bütün çətinliklərə baxmayaraq sabitliyi və idarəetməni qoruyub saxlayan Naxçıvan Muxtar Respublikasının rəhbəri Heydər Əliyev Azərbaycan xalqının yeganə xilaskarı oldu. Cəmiyyət artıq hakimiyyətdən ümidini üzmüş, siyasi qurtuluşu yalnız Ulu Öndərin yenidən Bakıya qayıdışında görürdü. Heydər Əliyevin xalqın təkidli tələbi ilə Bakıya gəlməsi və iyunun ikinci yarısında siyasi rəhbərliyə keçməsi ilə ölkədə proseslər tamamilə fərqli istiqamət aldı. Qısa zamanda hərbi-siyasi böhranın qarşısı alındı və dövlət idarəetməsi bərpa oldu. Heydər Əliyev həm də xalqa sabaha inamı, dövlətə güvəni qaytardı.

Azərbaycan ikinci dəfə qazandığı müstəqilliyini itirmək ərəfəsində idi. Ancaq xalqın müdrikliyi və Ulu Öndərin zamanında atdığı qəti addımlar nəticəsində bu faciənin qarşısı alındı.

4 iyun hadisələri Azərbaycan dövlətinə qarşı ciddi təhlükə idi. Məhz belə bir vaxtda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyevin müdrikliyi, təmkinli qərarları, peşəkar idarəçilik bacarığı Azərbaycanı vətəndaş müharibəsi təhlükəsindən xilas etdi. Siyasi xaosa son qoyuldu, dövlətçilik dirçəldi, ordu və təhlükəsizlik strukturlarında islahatlara başlanıldı. Ümummilli lider ilk növbədə, ictimai sabitliyi bərpa etməyə nail oldu, ölkə daxilində siyasi qüvvələr arasında dialoqu təşviq etdi və beynəlxalq əlaqələrin bərpası istiqamətində mühüm addımlar atıldı. Ulu öndər Heydər Əliyevin uzaqgörən diplomatiyası Azərbaycanın beynəlxalq münasibətlər sistemində müstəqil və balanslaşdırılmış siyasət yürütməsinə zəmin yaratdı. O dövrdə təməli qoyulan xarici siyasət kursu Prezident İlham Əliyev



tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan regionda və dünyada öz mövqeyini gücləndirir, prinsipial mövqe sərgiləyir və qlobal təşəbbüslərlə çıxış edir.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**